BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№3 *Humanitar elmlər seriyası* 2008

# GÜRCİ ALİMLƏRİNİN AZƏRBAYCAN NUMİZMATİKASININ İNKİŞAFINDA ROLU HAQQINDA (İ.CALAQANİNİN ƏSƏRLƏRİ TİMSALINDA)

**M.İ.VƏLİYEVA**
***AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutu***

Azərbaycanda sikkəşünaslıq elminin yaranma tarixi sovet dövlətinin ilk illəri ilə bağlıdır. 1920-1930-cu illərdə bolşeviklər tərəfindən işğal edilmiş respublikalara Moskvadan ayrı-ayrı elm sahələrinin təşəkkül tapmasında yardım göstərmək üçün bir çox dünya şöhrətli «qırmızı professorlar» adı altında alimlər göndərilmişdi. Əslində, bu elm adamları sovet rejimi olmamışdan əvvəl də dünyada tanınmış alimlər idi. Onların hər biri Avropa ölkələrində yüksək səviyyəli təhsil almış və 1920-1922-ci illərdə elm aləmində müəyyən pillələrə ucalmışdılar. Adlarının qarşısına «qırmızı» təxəllüsünün əlavə edilməsi sovet bayrağının rəmzi ilə əlaqədar idi. Bunların arasında V.V.Bartold, A.Marr, A.K.Markov, Y.A.Paxomov, A.Lessen və digərlərinin adlarını çəkmək olar. Bu alimlərin elmin digər sahələri ilə yanaşı, həm də tarix elminin inkişafında böyük rolları olmuşdur.

Həmin səksəkəli, çox gərgin illərdə adı çəkilən alimlər tərəfindən qələmə alınan dəyərli elmi işlər içərisində Azərbaycanı öyrənən cəmiyyətlərin xətti ilə aparılan tədqiqatlar sırasında araşdırdığımız mövzuya uyğun böyük əhəmiyyətə malik sənədlər, hesabatlar vardır.

Belə ki, hələ 1919-cu ildə Azərbaycan Demokratik Respublikasının fəaliyyəti zamanı yaradılan «İstiqlal» muzeyinin fondlarında az miqdarda olan pul və pul nümunələrini öyrənə biləcək mütəxəssis-numizmat olmadığından sovet hakimiyyəti illərində bura göndərilən alimlər içərisində Y.A.Paxomov vardı. Y.A.Paxomov ixtisasca xəritəçəkən olsa da, xoş təsadüf nəticəsində bolşevik inqilabından əvvəl rus numizmatika elminin yaradıcılarından A.K.Markovun yanında sikkəşünaslıq üzrə dərs almış və 20-ci illərdə onun bu sahədə yetəri qədər səviyyəsi vardır.

Y.A.Paxomov Azərbaycan numizmatika elminin əsasını qoymuş bir şəxs olmaqla yanaşı, həm də Cənubi Qafqaz respublikalarında bu elmin təşəkkül tapmasında böyük rol oynamışdı. 30 illik elmi yaradıcılığında Y.A.Paxomovun yetirmələri içərisində sovet-gürcü alimləri də vardır. Bunlara misal olaraq D.Q.Kapanadze, K.V.Qolenko və İ.Calaqaninin adlarını çəkmək olar. Gürcüstanda numizmatika elminin inkişafında bu alimlərin böyük rolu olmuşdur. Bununla yanaşı, Y.A.Paxomovun adını çəkdiyimiz davamçılarının yaradıcılığında Azərbaycan numizmatikasının bəzi problemləri haqqında müəyyən məlumatlar vardı.

Yeri gəlmişkən, xüsusi qeyd etmək lazımdır ki, sovet dövlətinin ideoloji xəttində imperiyaya daxil olan bütün respublikaların tarixinə eyni bir qlobal baxış əsas yer tuturdu. Yəni, 1920-1922-ci illərə qədər

bütün respublikaların tarixində feodal əsarəti, gerilik, avamlıq, protektoratlıq bu xalqlara öz təsirini göstərmişdir. Bununla da Cənubi Qafqaz respublikalarının da yeni tarixi yazılarkən yuxarıda adı çəkilən alimlər onları bir-birindən ayırmamalıydılar. Bu səbəbdən də sovet dövründə bütün sahələrdə yazılan elmi əsərlərdə, o cümlədən, numizmatika üzrə olan kitablarda ayrıca bir tarix yoxdur. Bu kitabların ən müsbət cəhəti də bundadır.

Bu qəbildən İ.Calaqaninin 1980-ci illərdə Tiflisdə nəşr etdirdiyi Gürcüstan pul dəfinələri Çiteli Çkarodan tapılan Sasani və Bizans dövrü dəfinəsi (2 cild) adlı əsərində geniş numizmatik təsviri olan kataloqda Azərbaycan tarixinin öyrənilməsi üçün çox vacib dövr olan Atropatena pulları haqqında müəyyən məlumat və mülahizələr vardır.

Qeyd etmək lazımdır ki, Atropatena adında zərbxananın pulları haqqında ilk dəfə XIX əsrdə alman alimlərindən A.D.Mortmann, XX əsrin 60-cı illərində G.Volker öz əsərlərində qısa məlumatlar vermişlər (3, s. 5). Atropatena bu alimlər tərəfindən şəhər kimi deyil, inzibati vilayət statusunda təqdim edilmişdi.

Sonralar M.Ə.Seyfəddini «Atra» adlı zərbxananın pul nominallarını Şamaxının Bığırlı kəndindən keçən əsrdə tapılan dəfinədə də təyin etmişdi. Bu zərbxananın adı həmin dəfinədən aşkar edilən Valaksin (484-488-ci illər), Peruzun (454-459, 484-cü illər), I Kavadın (484-488, 497-499-531-ci illər) və I Xosrovun (531-579-cu illər) adından zərb edilən gümüş pulların üzərində oxunmuşdu (4, s. 120-122).

«Atra-Atropatena» adlı zərbxananın pul nominalları ayrıca silsilə kimi gürcü alimi İ.Calaqaninin yuxarıda göstərdiyimiz əsərində verilmişdi. Bu pullar müəllifin məlumatına əsasən, Gürcüstan Dövlət Muzeyində saxlanılır. Maraqlıdır ki, müəllif tərəfindən bu pullardan bəzilərinin təsnifatı onun əsərində göstərilərkən bir çox hallarda sual işarəsi ilə birlikdə verilmişdi (2, s. 28, №76; s. 29, №179) və s. Müəllif tərəfindən sual işarəsinin hansı səbəbdən məhz bu zərbxananın adı qarşısında yerləşdirilməsinə xüsusi izah verilməsə də, o, sitat kimi alman alim-numizmatı Göblün əsərinin adını çəkir və onun «AT» monoqramının «Atra» kimi oxunması, adı çəkilən zərbxananın Azərbaycanda yerləşdiyini göstərir (2, s. 84; №59).

Kataloqa əsasən, yuxarıda adı çəkilən dəfinə, Sasani draxmaları və Bizans geksaqramlarından ibarətdir. Dəfinənin tərkibinə daxil olan pulların ən qədimi I Xosrov Ənuşirəvanın hakimiyyəti illərində (531-532-ci illər), ən son zərb tarixi Bizans imperatorlarından İrakliy, İrakliy-Konstantin və İraklionun adlarından birgə vurulan geksaqramlardır. Buradan da məlum olur ki, İ.Calaqaninin tərtib etdiyi mükəmməl kataloqda «Atra» adında Atropatena zərbxanası Sasanilərin dövründə fəaliyyət göstərmişdir. Bu zərbxana Azərbaycanda yerləşmişdi. Əsasən, dövriyyəyə gümüş dirhəmlər buraxmışdı. M.Ə.Seyfəddininin ehtimalına görə, Atropatena adlı zərbxana Azərbaycan şəhəri olan Ərdəbildə yerləşmişdi (4, s. 89).

İ.Calaqani kitabının II cildində «Atra-Atropatena» zərbxanasına aid olan bəzi pul nominallarının geniş numizmatik təsvirini vermişdi. Nümunə üçün onlardan birinin tərcüməsini təqdim edirik (1, s. 89).

№478, çəkisi 4,10 qr, d=29-32 $m^m$, Xosrov II Pərviz (591-628-ci illər).

Avers. Monoqrammada Xosrovun adı vertikal şəkildə, orta hissəsi göstərilən altıbucaqlı ulduzun içərisində verilmişdi. Bu ulduzun hər iki

tərəfindən iкi qanadvarı bəzəк кənar çərçivəyə çıxır. Obraz yarıay ulduz–ay-ulduz formasını göstərir.

Pulun bütün sahəsi nöqtəli кənar çərçivəyə alınmışdı, monoqramma daxildə, sol tərəfdə iкi sətirdə zərb edilmişdi.

Revers: ATRA monoqramı ətrafında üçxətli nöqtəli кənar çərçivənin içərisində simmetriк vəziyyətdə ay-ulduz кiçiк ulduzlar arasında göstərilib.

Müəllif tərəfindən oxşar pulların sayı 20 göstərilib. Onun fiкrincə, Çiteli Çiкarodan tapılmış dəfinənin tərкibindəкi pulların arasında bu pul dəyərlərinin Kartli və Ermənistanın şimalından daxil ola bilməməsi ehtimal edilir (1, №134). Beləliкlə də aydın olur кi, Sasanilərin dövründə bu zərbxanaların bəziləri, o cümlədən Atra–Atropatena Azərbaycan dövlətinin ərazisində yerləşirdi və oradan imperiyanın digər ərazilərinə pullar yayılırdı.

Gürcü alim numizmatlarından biri olan Y.A.Paxomovun davamçılarından İ.Calaqaninin bununla da son nəticədə Sasanilərin dövründə əsas intensiv işləyən pul zərbxanalarının bəzilərinin Azərbaycanda yerləşdiyini, tranzit yolu ilə Azərbaycandan Gürcüstana və imperiyanın digər ərazilərinə yayılmasını təsdiq edir. Bununla da görкəmli gürcü alimi İrina Calaqaninin uzun illər apardığı çox ciddi elmi araşdırmasının dəyərli nəticəsi кimi Gürcüstan ərazisində aşкar edilən bəzi dəfinələrin öyrənilməsi göstərilir. Qədim tariximizin ən qaranlıq səhifələrindən biri olan Atropatena dövlətinin öyrənilməsində, onun bir vilayət кimi Sasanilər dövrünə qədər fəaliyyət göstərməsini sübut edən numizmatiк materiallar çox vacibdir.

**QEYDLƏR:**


1. Сейфеддини М.А. Нумизматика Азербайджана. I том, Баку: 1998.
2. Джалагания И. Монетные клады Грузии. Клад сасанидских и византийских монет из Цители Ц каро I, II том. Тбилиси: 1980-1982-года.
3. Mortmann A.D.Erкelarinq der muinzen mit pehlui ligenden, peypziq, I-1853; II-1865.
4. Wolкer G.Cataloq ab, the mihamnudan coinsin the British muzeim. Vol. I. Arab-Sasanian. L.London, 1967.
5. R.Göbl. Awfbou der Münzpröging.- T.Altheim imd R.Stiel, Ein Asiatiseher staet, Wiesbraden, 1954, 84.№59.


## РОЛЬ ГРУЗИНСКИХ УЧЕНЫХ В РАЗВИТИИ НУМИЗМАТИЧЕСКОЙ НАУКИ АЗЕРБАЙДЖАНА
**(на примере И.Джалагания)**


**М.И.ВЕЛИЕВА**


**РЕЗЮМЕ**


В статье рассматривается роль научной деятельности грузинского нумизмата И.Джалагания в плане развития нумизматической науки в Азербайджане. Конкретно приводится каталог с описанием серебряных драхм монетного двора Атропатены в период государства Сасанидов. В описании монет из клада Цтели Цкаро автор неоднократно описывает монеты из Атропатены и каждый раз ставит под сомнения локализа-

ции этой области в Азербайджане. Автор статьи путем анализа доказывает, что территория Атропатены в пределах VI-VII веков находилась на территории Азербайджана. Тем самым указывается неоценимая роль И.Джалагания при идентификации данного монетного двора.

**ROLE OF GEORGIAN SCIENTISTS IN DEVELOPMENT OF THE NUMISMATIC SCIENCE OF AZERBAIJAN ON EXAMPLE I.DZHALAGANIYA**

**M.I.VELIYEVA**

**SUMMARY**

The role of scientific activity of Georgian numismatist I.Dzhalaganiya is reviewed in article, as development of numismatic science in Azerbaijan. Concretely the catalogue is cited with description of the silver drachmas of the mint of Atropatena at period Sasanis. In description of the coins from treasure Cteli Ckaro, author repeatedly describes the coins from Atropatena and every time puts under doubts localization of this area in Azerbaijan. The Author of the article by analysis proves that the territory of Atropatena within VI-VII ages was located on territory of Azerbaijan. With this inestimable role of I.Dzhalaganiya at identification of given mint is pointed.